**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

İxtisas: 5312.01 - "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53 - İqtisad elmləri

**İddiaçı:** **Cavid Muxtar oğlu Abdullayev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2026**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "Xidmət sferasının iqtisadiyyatı" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Mahir Həmzə oğlu Zeynalov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, dosent<br>**Allahyar Niyaz oğlu Muradov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**İsmayıl Elman oğlu İsmayılov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Ələsgər Mehdi oğlu Əliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ___________ | iqtisad elmləri doktoru, professor<br>**Nazim Müzəffər oğlu İmanov** |
| Dissertasiya şurasının elmi katibi: ___________ | iqtisad üzrə fəlsəfə doktoru<br>**Sevda Məmməd qızı Seyidova** |
| Elmi seminarın sədri: ___________ | iqtisad elmləri doktoru, professor<br>**Tərbiz Nəsib oğlu Əliyev** |

## TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son illərdə Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsi həm institusional islahatların dərinləşməsi, həm də regionların iqtisadi potensialının daha rasional səfərbər edilməsi ilə xarakterizə olunur. Bu prosesin ən böyük və real "sahə laboratoriyası" işğaldan azad olunmuş ərazilərdir. Burada iqtisadiyyat ənənəvi ardıcıllıqla deyil, paralel xətlər üzrə bərpa edilir: təhlükəsizlik və minalardan təmizləmə, şəhərsalma və yaşayış fondunun qurulması, sosial infrastrukturun təşkili, enerji və rəqəmsal şəbəkələrin yaradılması, sahibkarlıq mühitinin formalaşdırılması və turizm axınlarının təşviqi həyata keçirilir.

Bu kontekstdə xidmət sahələri ayrıca mövzu kimi önə çıxır. Çünki azad edilmiş ərazilərdə iqtisadi həyatın "işə düşməsi" ən tez gündəlik xidmətlərdən başlayır. İnsanların məskunlaşma qərarı, iş yerinin yaranması, bazarın formalaşması və turistin bölgəyə yönəlməsi ilk növbədə xidmətlərin əlçatanlığı, keyfiyyəti və sabitliyi ilə ölçülür. Dövlət proqramları və normativ çərçivə də bununla uzlaşır. Böyük Qayıdışa dair I Dövlət Proqramı sosial-iqtisadi reabilitasiyanı tək tikinti həcmi kimi deyil, yaşayışın bərpası və xidmətlərin təşkili olaraq da hədəfləyir. Azərbaycan 2030 milli prioritetləri isə regionların dayanıqlı inkişafına, rəqabətqabiliyyətli iqtisadi strukturun qurulmasına və innovasiya yönümlü yanaşmalara söykənir.

İşğaldan azad edilmiş ərazilər üçün xidmət sahələrinin aktuallığı yalnız sosial rahatlıqla məhdudlaşmır. Burada xidmətlər bir neçə iqtisadi funksiyanı eyni vaxtda daşıyır. Birincisi, xidmətlər məskunlaşmanın davamlılığı üçün ilkin şərtdir. İkincisi, xidmətlər investisiya riskinin qiymətləndirilməsində əsas göstəricilərdəndir. İnvestor üçün obyektin tikilməsi qədər onun istismar dövrünün idarə edilməsi, kadr təminatı, tədarük zənciri və müştəri axını vacibdir. Üçüncüsü, xidmətlər turizmin istehsal mexanizmidir. Turizm yalnız təbiət və irs deyil, həmin resursların satışa çevrilməsi üçün logistik, informasiya, iaşə, yerləşmə, təhlükəsizlik və tədbir xidmətləri şəbəkəsidir.

Azad edilmiş ərazilər "sıfırdan qurulan" məkan kimi idarəetmədə rəqəmsal və innovativ həllərin tətbiqi üçün daha əlverişli

imkan yaradır. Ağıllı şəhər və ağıllı kənd konsepsiyalarının tətbiqi, yaşıl enerji zonası yanaşması, rəqəmsal idarəetmə və proaktiv dövlət xidmətləri tək texniki yenilik deyil, xidmət sahələrinin məhsuldarlığını və keyfiyyətini uzun müddətdə müəyyən edən institusional çərçivədir. Bu səbəbdən dissertasiyada xidmətlərin inkişafı xidmət ekosisteminin necə qurulduğu, hansı mexanizmlərlə genişlənməsi və konkret göstəriciləri ilə izah edilir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə, post-konflikt bərpa və regional inkişafla bağlı yerli elmi ədəbiyyatda konseptual yanaşmalar mövcuddur. Azərbaycanın post-konflikt ərazilərinin bərpasının konseptual əsasları üzrə yanaşmalar, reinteqrasiya və idarəetmə mexanizmləri, iqtisadi potensial və müqayisəli üstünlüklər kimi amillər müxtəlif müəlliflər tərəfindən araşdırılıb. Qarabağ və Şərqi Zəngəzur üzrə reabilitasiya proseslərinin ümumi iqtisadi çərçivəsi və strateji baxışı da ayrı-ayrı nəşrlərdə öz əksini tapıb.

Buna baxmayaraq, mövcud tədqiqatların əhəmiyyətini azaltmadan qeyd edilməlidir ki, işğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin inkişafı mövzusu çox vaxt ya ümumi bərpa prosesinin içində "əlavə xətt" kimi keçir, ya da turizm və infrastrukturun kölgəsində qalır. Xidmət sahələrinin bütöv sistem kimi təsnifatı, inkişaf indikatorlarının seçilməsi, biznes mühiti və turizm axınları ilə əlaqəsinin iqtisadi-statistik əsaslarla qiymətləndirilməsi istiqamətində daha sistemli yanaşmaya ehtiyac var.

Hələ torpaqlarımızın işğalda olduğu dövrlərdə - 2010-cu ildə professorlar Nazim Müzəffərli və Eldar İsmayılov Qarabağın gələcək bərpası planlarını görürdülər və bu sahədə ilk nəzəri tədqiqat əsərlərini məhz onlar həyata keçirmişdilər. Bundan başqa, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində xidmət sahələrinin təşkili və təşviqi, özəl və dövlət sektorunun birgə əməkdaşlığı, post-konflikt ərazilərin hərtərəfli inkişafı, bu sahədə beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqi, IV sənaye inqilabının regionda tətbiqi Azərbaycanlı alim və tədqiqatçılardan: N.Müzəffərli, T.N.Əliyev, A.M.Əsədov, A.Musayev, A.Muradov, F.Qənbərov, M.H.Zeynalov, B.Əhmədov, Ə.Muradov, Ə.X.Nuriyev, E.İsmayılov, A.Hüseynli, Q.Manafov və başqaları, xarici tədqiqatçılardan isə T.H.Van, D.M.Quan , N.D.Phong, F.Filipov,

F.Vanda, C.Oya, B.Monreal, A.H.Spartak, İ.V.Abakumova, E.N.Ryadinskaya, V.M.Kataçkov və digərləri tərəfindən araşdırılmış, toxunulan problemlərin həllinə dair sahə üzrə vacib olan tövsiyyələr verilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin inkişaf perspektivlərini qiymətləndirmək, xidmət ekosisteminin formalaşmasına təsir edən əsas determinantları müəyyən etmək və bu prosesin sürətləndirilməsi üçün nəzəri-metodoloji və praktik tövsiyələr hazırlamaqdır. Həmin məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələr qarşıya qoyulmuş və məntiqi ardıcıllıqla yerinə yetirilmişdir:

• Xidmət sahələrinin mahiyyəti, təsnifatı və iqtisadi sistemdə funksiyaları üzrə nəzəri yanaşmaların ümumiləşdirilməsi, post-konflikt ərazilərdə xidmətlərin bərpası üzrə konseptual baxışların təhlili;

• İşğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma prosesinin xidmət sahələri prizmasından qiymətləndirilməsi, xidmətlərin sosial-iqtisadi reabilitasiya mexanizmləri ilə əlaqəsinin izah edilməsi;

• Xidmət sahələrinin fəaliyyətinin və biznes mühitinin formalaşmasının mövcud vəziyyətinin statistik və faktiki materiallar əsasında təhlili;

• Sahibkarlar və vətəndaşlar arasında aparılan anket sorğularının nəticələrinə əsasən xidmət sahələrinin inkişaf prioritetlərinin, investor cəlbi faktorlarının və məskunlaşma qərarına təsir edən əsas maneələrin müəyyən edilməsi;

• Sorğu nəticələri əsasında qurulan xətti reqressiya modelləri ilə sosial infrastruktur və strateji layihələrin bərpa prosesinin qavranılan effektivliyinə təsirinin ekonometrik qiymətləndirilməsi;

• Qarabağ iqtisadi rayonu üzrə illik zaman sırası verilənləri əsasında turizm axınını izah edən determinantların qiymətləndirilməsi və nəticələrin xidmət siyasəti ilə uzlaşdırılması;

• IV Sənaye İnqilabı kontekstində xidmətlərin yeni növ və formalarının regionda tətbiqi imkanlarının təhlili, mütərəqqi təşviq mexanizmlərinin praktiki çərçivəsinin formalaşdırılması.

**Tədqiqat metodları.** Dissertasiya işində müqayisəli təhlil, sistem yanaşma, statistik qruplaşdırma, kontent təhlili, sosioloji tədqiqat metodları tətbiq edilmişdir. Empirik hissədə sorğu məlumatlarının emalı, göstəricilərin təsviri statistikası və xətti reqressiya modelləri SPSS proqramında qurulmuş, əlavə olaraq illik zaman sırası məlumatları üzrə çoxdəyişənli və log-transformasiyalı spesifikasiyalarla ekonometrik qiymətləndirmələr aparılmışdır.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində formalaşan və inkişaf edən xidmət sahələridir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti işğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin təşkili və inkişafını şərtləndirən sosial-iqtisadi mexanizmlər, təşviq alətləri, institusional çərçivə və xidmət ekosisteminin formalaşma prosesidir.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Tədqiqatın nəzəri-metodoloji əsasını Azərbaycan Respublikasının qanunvericilik aktları, Azərbaycan 2030 milli prioritetləri, Böyük Qayıdışa dair I Dövlət Proqramı, sahibkarlıq mühiti və təşviq mexanizmlərinə dair normativ sənədlər, dövlət statistik hesabatları, post-konflikt bərpa və regional inkişaf üzrə yerli və xarici alimlərin elmi əsərləri təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** İrəli sürülən elmi nəticələrin aşağıdakı müddəaları müdafiəyə çıxarılır:

1. İşğaldan azad edilmiş ərazilərdə xidmət sahələrinin inkişafı bərpa və yenidənqurma prosesinin əhalinin məskunlaşması, biznes aktivliyi və turizm axınları ilə paralel şəkildə formalaşan iqtisadi sistem kimi nəzərdən keçirilməsinə, sistemin qiymətləndirilməsi zamanı xidmətlərə əlçatanlıq və keyfiyyət indikatorları əsasında aparılmasına ehtiyac var;

2. Xidmət sektorunun inkişafında dövlətin koordinasiya rolu keçid mərhələsində aparıcı olaraq qalmalı, lakin dayanıqlılıq mərhələsində bazar mexanizmlərinin genişlənməsi nəticəyönümlü təşviq alətləri, özəl sektorun bazara girişini asanlaşdıran institusional qaydalar və rəqəmsal idarəetmə mexanizmləri vasitəsilə təmin edilməlidir. Bu da nəticə etibarı ilə yeni xidmət növlərinin tədbiqinə, xidmətlərin keyfiyyətinin yüksəlməsinə zəmin yaratmış olacaqdır;

3. Tədqiqat işi çərçivəsində aparılmış sorğunun nəticələri xidmət və sənaye fəaliyyətlərinin paralel inkişafına ictimai dəstəyin mövcudluğunu göstərir. Bu yanaşma xidmət sahələrinin yalnız turizmlə məhdudlaşdırılmamasını, gündəlik ticarət, iaşə, nəqliyyat, kommunal və dövlət xidmətləri şəbəkəsinin eyni vaxtda təşkili zərurətini ortaya çıxarır ki, bu da xidmət sferasının şaxələndirilməsinə imkan verəcəkdir;

4. Sorğu məlumatları əsasında qurulan xətti reqressiya modelləri ağıllı şəhər layihələri, alternativ enerji təşəbbüsləri və hava nəqliyyatı infrastrukturu kimi elementlərin bərpa prosesinin effektivliyi ilə statistik bağlılığını təsdiqləyir və xidmət strategiyasının rəqəmsal və dayanıqlı infrastrukturla uzlaşdırılmasını tələb edir;

5. Rəsmi statistik göstəricilər əsasında aparılan ekonometrik təhlil dövlət investisiyalarının mehmanxana və mehmanxana tipli obyektlərdə gecələmələrin artımı ilə müsbət əlaqəsini göstərir, lakin iaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayında təsirin daha gec formalaşdığını ortaya qoyur. Model Summary cədvəlinə əsasən R=0,623 olmuşdur ki, bu da investisiyalarla mehmanxanalarda gecələmələrin sayı arasında müsbət və orta güclü əlaqənin mövcudluğunu ifadə edir;

6. Rəqəmsal texnologiyaların və IV Sənaye İnqilabı alətlərinin tətbiqi regionda xidmətlərin yeni formalarının yaranmasına şərait yaradır və xidmətlərin idarə edilməsində məlumat əsaslı qərarverme, elektron xidmət platformaları və standartlaşdırma mexanizmlərinin prioritetliyini şərtləndirir;

7. Xidmət sahələrinin inkişafının sürətləndirilməsi məqsədilə nəticəyönümlü proqramlaşdırma, minimum xidmət paketinin müəyyənləşdirilməsi, dövlət–özəl tərəfdaşlığı və françayzinq mexanizmlərinin tətbiqi, kadr hazırlığı və keyfiyyətə nəzarət alətlərinin kompleks şəkildə həyata keçirilməsi təmin edilməlidir.

**Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- İşğaldan azad edilmiş ərazilərdə xidmət sahələrinin inkişafının konseptual çərçivəsi məskunlaşma, biznes fəallığı və turizm axınları ilə qarşılıqlı əlaqədə vahid iqtisadi sistem kimi əsaslandırılmışdır;

- Post-konflikt ərazilərdə xidmət sektorunun mərhələli formalaşma məntiqi işlənilmiş, ilkin xidmət paketinin iqtisadi və sosial təsir kanalları sistemləşdirilmişdir;

- Sahibkarlar və vətəndaşlar arasında aparılmış sorğular əsasında xidmət sahələrinin inkişaf prioritetləri, investor cəlbi faktorları və məskunlaşma qərarına təsir edən əsas maneələr empirik əsasda müəyyən edilmişdir;

- Sorğu verilənləri üzrə xətti reqressiya modelləri qurularaq sosial infrastruktur, nəqliyyat və alternativ enerji layihələrinin bərpa prosesinin qavranılan effektivliyinə təsiri statistik baxımdan qiymətləndirilmişdir;

- İşğaldan azad edilmiş regionlar üzrə rəsmi statistik göstəricilər əsasında investisiya həcmi ilə turizm axınları və xidmət subyektlərinin dinamikası arasında asılılığın ekonometrik qiymətləndirilməsi aparılmışdır;

- Xidmət sektorunun dirçəldilməsi üçün innovativ və institusional təşviq mexanizmlərinin regiona uyğun tətbiq çərçivəsi formalaşdırılmışdır;

- Rəqəmsal idarəetmə və IV sənaye inqilabı alətlərinin xidmət sahələrinə inteqrasiyasının iqtisadi və təşkilati nəticələri sistemləşdirilmiş və tətbiq istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri nəticələri post-konflikt ərazilərdə xidmət sahələrinin bərpasının iqtisadi məntiqini genişləndirir, xidmət sahələrinin yalnız istehlak funksiyası ilə deyil, reinteqrasiya və iqtisadi canlanmanın baza mexanizmi kimi izahına metodoloji çərçivə verir. Praktiki nəticələr işğaldan azad olunmuş ərazilərdə xidmət strategiyasının hazırlanması, minimum xidmət paketinin standartlaşdırılması, investor təşviqi və özəl sektorun cəlbi, turizm portfelinin idarə edilməsi, rəqəmsal idarəetmə və keyfiyyət nəzarəti mexanizmlərinin qurulması üçün istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin nəzəri-metodoloji və həmçinin, eyni zamanda əhəmiyyətli müddəaları, işlənib hazırlanmış müvafiq nəticələri və təklifləri məhz aşağıdakı respublika və paralel olaraq, beynəlxalq əhəmiyyətli elmi konfranslarda məruzə olunmuş, hər birisi tezis və konfrans

materialları formasında çap edilmiş, konfranslarda iştiraka görə müvafiq sertifikatlara layiq görülmüşdür:

- Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "İqtisadiyyatın idarə edilməsinin müasir problemləri və perspektivləri" respublika elmi konfransı (Bakı, ADNSU, 23-24 noyabr 2023-cü il);
- Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" beynəlxalq elmi konfrans (Gəncə, GDU, 05-06 may 2023-cü il);
- Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" II beynəlxalq elmi konfransı (Mingəçevir, MDU, 08-09 dekabr 2023-cü il);
- Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Dövlətlərarası iqtisadi əlaqələr: müasir çağırışlar və perspektivlər" beynəlxalq elmi konfrans (Sumqayıt, SDU, 25-26 may 2023-cü il);
- İngilis dilində keçirilmiş Springerdə nəşr olunan "Ağıllı Ətraf Mühit və Yaşıl Texnologiyalar" Scopusla indekslənən beynəlxalq konfrans (Bakı, Odlar Yurdu Universiteti, 12-13 aprel 2024-cü il);
- Rus dilində keçirilmiş "Rusiya iqtisadiyyatının modernləşdirilməsinin aktual aspektləri" tələbələrin, doktorantların və gənc tədqiqatçıların X Ümumrusiya elmi-praktik konfransı (Sankt Peterburq, SPBQU ETU LETİ, 25 dekabr 2023-cü il).

Elmi işin mövzusuna uyğun 2-i xaricdə olmaqla (onlardan 1-i yüksək səviyyəli beynəlxalq bazada indeksləşən jurnalda), AAK-ın tövsiyə etdiyi elmi jurnal və konfrans materiallarında 5 çap vərəqi həcmində 14 məqalə və tezis nəşr edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi giriş, üç fəsil, 10 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahılarından ibarətdir. Onun ümumi həcmi 281387 işarə təşkil edir. O cümlədən titul vərəqi və mündəricat 1551 işarə, giriş 14340 işarə, I fəsil 80920 işarə, II fəsil 84408 işarə, III 10 fəsil 49087 işarə,

istifadə edilmiş ədəbiyyat siyahısı 14423 işarə, cədvəllər, şəkillər, diaqramlar və istifadə edilmiş ədəbiyyat siyahısı nəzərə alınmadan dissertasiya işinin həcmi 244729 işarə təşkil edir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ**

**I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ YENİDƏN QURULMASI PROSESİNDƏ XİDMƏT SAHƏLƏRİNİN TƏŞKİLİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**

1.1.Xidmət sahələrinin təsnifatı, əsas xüsusiyyətləri və təşkilinin nəzəri aspektləri

1.2. Post-konflikt ərazilərdə xidmət sahələrinin yenidən qurulmasına dair elmi-nəzəri baxışlar və yanaşmalar

1.3. Post-konflikt ərazilərdə xidmət sahələrinin bərpası və yenidən qurulması üzrə beynəlxalq təcrübə

**II FƏSİL. AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ XİDMƏT SAHƏLƏRİNİN BƏRPA EDİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ**

2.1. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işləri

2.2. İşğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin fəaliyyətinin təhlili və əlverişli biznes mühitinin formalaşdırılması

2.3. İşğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin təşkilinin anket sorğusu əsasında qiymətləndirilməsi

2.4. İşğaldan azad olunmuş regionların yenidən qurulmasına sosial infrastruktur obyektlərinin təsirinin ekonometrik təhlili

**III FƏSİL. AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ XİDMƏT SAHƏLƏRİNİN İNKİŞAFININ BAŞLICA İSTİQAMƏTLƏRİ**

3.1. “IV Sənaye İnqilabı” modelini tətbiq edən ölkələrin xidmət sahələrindəki təcrübəsinin regionda tədbiqinin mümkün faydaları

3.2. Xidmət sahələrinin inkişafı üzrə mütərəqqi təşviq mexanizmlərinin tədbiqi imkanları

3.3. İşğaldan azad olunmuş ərazilərdə xidmətlərin yeni növ və formalarından istifadənin başlıca istiqamətləri

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, istifadə olunan metodlar, müdafiyə çıxarılan əsas müddəalar müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin yerinə yetirildiyi təşkilat, quruluşu və ümumi həcmi barədə məlumatlar təqdim olunmuşdur.

Dissertasiyanın **"İşğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin təşkiliinin nəzəri-metodoloji əsasları"** adlı birinci fəslində xidmət sahələrinin mahiyyəti, məzmunu, növləri və iqtisadi sistemdə rolu, post-konflikt məkanlarda bərpa siyasətinin mərhələli quruluşu, xidmətlərin institusional təşkili mexanizmləri, eləcə də xidmət sektorunun inkişafı üzrə beynəlxalq təcrübə sistemli şəkildə araşdırılmışdır.

Tədqiqatın çoxaspektli xarakteri nəzərə alınaraq əvvəlcə xidmət sahələrinin iqtisadi nəzəriyyədə formalaşmış yanaşmaları, onların maddi istehsal sferası ilə qarşılıqlı əlaqəsi, xidmətlərin qeyri-maddiliyi, istehsal və istehlakın eyni vaxtda baş verməsi, keyfiyyət meyarlarının fərqliliyi kimi xüsusiyyətlər ümumiləşdirilmişdir. Müəyyən edilmişdir ki, müasir şəraitdə xidmətlər yalnız istehlak sahəsi kimi deyil, istehsal, logistika və investisiya axınlarının işləməsini təmin edən mühüm sektor kimi çıxış edir. Xüsusilə post-konflikt ərazilərdə müasir standartlara uyğun xidmətlərin təşkili vacibdir: bir tərəfdən sosial adaptasiyanın təmin edilməsi, digər tərəfdən iqtisadi aktivliyin formalaşdırılması baxımından.

Xidmət sahələrinin yenidən qurulması bu sahələrin iqtisadiyyatda rolunu artırır, yeni iş yerləri yaradır, insanların həyat səviyyəsini yüksəldir. Bu yenilənmiş sektorlar müxtəlif insan ehtiyaclarına cavab verən daha yaxşı və səmərəli xidmətlər təklif etməklə ölkənin ümumi iqtisadi gücünü artırmağa və onun sosial-iqtisadi inkişafını sürətləndirməyə kömək edir, həmçinin iqtisadi inkişafı dəstəkləyir[1].

Azad edilmiş ərazilərdə həyatın yüksək keyfiyyətli bərpası və inkişafı 10 əsas fəaliyyət istiqamətini təmin etməlidir:

---

[1] Zeynalov M.H. "Xidmət sferasında sahibkarlığın inkişafı: problemlər və perspektivlər". Səh. 136. Bakl. "AVROPA", 2015, 208 səh.

1. Əhalinin yaşayış və fəaliyyəti üçün zəruri şəraitin təmin edilməsi.
2. Əhalinin köçürülməsi, şəhər və kəndlərin sistemli şəkildə bərpası.
3. İqtisadi inkişafı dəstəkləyəcək potensial iqtisadi imkanların müəyyən edilməsi və qiymətləndirilməsi.
4. Mövcud iqtisadi potensialdan səmərəli istifadə, məhsulların ixracı imkanlarının genişləndirilməsi.
5. Maliyyə dəstəyi mənbələrinin və imkanlarının müəyyən edilməsi.
6. Regionun təbii sərvətlərindən səmərəli istifadə etmək, bu imkanları xarici bazarlara inteqrasiya etmək.
7. Torpaq sahələrinin məqsədyönlü bölgüsü, ehtiyat torpaq fondunun saxlanılması və kənd təsərrüfatında sahibkarlığın inkişafı.
8. Yerli və xarici sahibkarlarla əməkdaşlığın gücləndirilməsi.
9. Turizm sektorunun inkişafı üçün zəruri tədbirlərin görülməsi.
10. Tədris və elmi-tədqiqat mərkəzlərinin yaradılması və inkişafı.

Bu planlar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə prioritet tədbirlərə, xüsusilə azad edilmiş ərazilərin minalardan təmizlənməsinə və ən zəruri yaşayış şəraitinin yaradılmasına yönəlib. Bu təşkilati tədbirlər rayonun dirçəlməsində və inkişafında mühüm rol oynayır[2].

Post-konflikt bərpa siyasəti mərhələli xarakter daşıyır. Keçid dövründə koordinasiya, planlaşdırma və resursların səfərbər edilməsi daha çox dövlətin üzərinə düşür. Növbəti mərhələdə isə bazarın dayanıqlılığı özəl sektorun girişini sürətləndirən hüquqi və təşkilati mexanizmlərlə müəyyən olunur. Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin inkişafı obyektlərin sayının artımı ilə deyil, xidmətlərin təşkil forması, standartlaşdırılması və idarəetmə mexanizmlərinin effektivliyi ilə qiymətləndirilməlidir.

Düşünürük ki, işğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin inkişafı sosial reinteqrasiyanın texniki əlavəsi deyil, onun struktur əsasını təşkil edir. Məskunlaşmanın davamlı xarakter alması yalnız yaşayış fondunun tikintisi ilə deyil, gündəlik həyatın

---

[2] Nuriyev Ə.X. "Ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri (tarix və müasirlik)." Bakı: Savad. 2021, 376 səh.

fasiləsizliyini təmin edən xidmət şəbəkəsinin formalaşması ilə mümkündür. Xidmətlərin gecikməsi əhalinin qərarvermə davranışına, xüsusilə də daimi köç seçimlərinə birbaşa təsir göstərir. Bu baxımdan xidmət sahələrinin təşkili paralel və sinxron mexanizm kimi qurulmalıdır. Əks halda fiziki infrastruktur mövcud olsa belə iqtisadi dövriyyə və sosial sabitlik eyni tempdə formalaşmayacaqdır.

Dissertasiyanın **"İşğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin inkişafının müasir vəziyyətinin təhlili"** adlı ikinci fəslində çoxillik statistik məlumatlar, rəsmi hesabat sənədləri və aparılmış sosioloji tədqiqatların nəticələri əsasında regionda xidmət sahələrinin formalaşma dinamikası təhlil edilmişdir. Əvvəlcə bərpa və yenidənqurma prosesinin sosial-iqtisadi göstəriciləri ümumiləşdirilmiş, 2020–2025-ci illər üzrə infrastrukturun mərhələli işə düşməsi və məskunlaşma dinamikası xidmət sahələrinin inkişafı kontekstində qiymətləndirilmişdir.

Xidmət sferasında sahibkarlığın genişlənməsi əhalinin tələbatının daha yaxşı ödənilməsi ilə yanaşı məşğulluğun artmasına təsir edir. Buna görə azad olunmuş ərazilərdə xidmət bazarı yalnız turizm istiqaməti kimi deyil, gündəlik ticarət, rabitə, maliyyə, nəqliyyat və sosial xidmətlərin bütöv şəbəkəsi kimi qiymətləndirilməlidir[3] [33]. Xidmətlərin davamlı istehlakı çox vaxt ilk təcrübədən başlayır. Müştərinin ilkin məmnunluğu təkrar istifadəni artırır, şikayətlərin operativ həlli isə reputasiya riskini aşağı salır, bu səbəbdən keyfiyyət idarəetməsi və müştəri münasibətləri xidmət müəssisəsində ayrı proses kimi qurulmalıdır. Azad edilmiş ərazilərdə xidmətlərin genişlənməsi üçün kadr bazası əvvəlcədən hazırlanmalıdır. Təhsil səviyyəsinin yüksəldilməsi, peşə bacarıqlarının yenilənməsi və texnologiya ilə işləmək vərdişləri xidmətlərin həm sürətinə, həm də keyfiyyətinə birbaşa təsir göstərir[4].

İşğaldan azad olunmuş ərazilərində xidmət sahələrinin inkişaf perspektivləri ilə bağlı bu araşdırma konteksində sahibkarlar arasında sorğu keçirilmişdir. Sorğumuzda ümumilikdə 47 sahibkar iştirak etmişdir. Sahibkarlar arasında aparılmış sorğunun nəticələri

---

[3] Zeynalov M.H. "Xidmət sferasında sahibkarlığın inkişafı: problemlər və perspektivlər". Bakl. "AVROPA", 2015, 208 səh.

[4] İbrahimov İ. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri (monoqrafiya). Kooperasiya nəşriyyatı. Bakı 2022.

göstərmişdir ki, iqtisadi canlanmanın dayanıqlı xarakter alması üçün xidmət və istehsal sahələrinin paralel inkişafı zəruridir. Respondentlərin 76,6 faizi məhz bu yanaşmanı üstün hesab etmişdir. Turizm sahəsi 74,5 faizlə ən perspektivli xidmət istiqaməti kimi seçilmişdir ki, bu da turizmin regionda xidmət ekosisteminin formalaşmasında aparıcı rol oynadığını göstərir. İş yerlərinin yaradılması məsələsində respondentlərin 51,1 faizi dövlət və özəl sektorun birgə fəaliyyətini vacib hesab etmişdir.

Vətəndaş sorğusunun nəticələri məskunlaşma qərarının sosial-iqtisadi detallarla formalaşdığını göstərmişdir. Respondentlərin 36,9 faizi geri qayıdışı ləngidən əsas maneə kimi hazırkı yaşayış mühitində formalaşmış həyat düzənini göstərmişdir. Bu fakt sübut edir ki, məskunlaşma yalnız fiziki infrastrukturla məhdudlaşmır, gündəlik xidmət şəbəkəsinin mövcudluğu ilə şərtlənir. İnvestorların cəlb olunması ilə bağlı sualda isə 37,6 faiz respondent əlverişli biznes mühiti və təşviq mexanizmlərini əsas amil kimi göstərmişdir.

**Qrafik 1. İşğaldan azad edilmiş ərazilərin qısa müddət ərzində iqtisadiyyatının canlanması üçün hansı sahənin inkişafına daha çox diqqət edilməlidir?**




**Mənbə**: Müəllifin apardığı sorğu məlumatları.

Yuxarıdakı diaqramda işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatının canlanması üçün hansı sahənin inkişafına daha çox diqqət edilməsi barədə keçirilmiş sorğunun nəticələri göstərilir.

Sorğuda iştirak edənlərin cavablarına əsasən nəticələr aşağıdakı kimi olmuşdur:

1. Xidmət sektoru (10.6%): İştirakçıların 10.6%-i qısa müddət ərzində iqtisadiyyatın canlanması üçün xidmət sektorunun inkişafına daha çox diqqət yetirilməsinin vacib olduğunu düşünür.

2. Sənaye sektoru (12.8%): Sorğuda iştirak edənlərin 12.8%-i sənaye sektorunun inkişafına daha çox diqqət yetirilməsini zəruri hesab edir.

3. Hər iki sahənin bərabər şəkildə inkişafı (76.6%): Əksəriyyət (76.6%) iştirakçılar hər iki sahənin - həm xidmət, həm də sənaye sektorunun - inkişafına eyni dərəcədə diqqət yetirilməsinin vacib olduğunu düşünür.

İkinci fəslin 2.4 yarımfəslində rəsmi statistik göstəricilər əsasında formalaşdırılmış aylıq verilənlər bazası üzrə xətti reqressiya modelləri qurulmuşdur. Təhlilin məqsədi dövlət investisiyalarının işğaldan azad edilmiş regionlarda xidmət sektorunun iki əsas göstəricisinə – mehmanxana və mehmanxana tipli obyektlərdə gecələmələrin sayına və iaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayına təsirini statistik əsaslarla qiymətləndirmək olmuşdur. Verilənlər Maliyyə Nazirliyi və Dövlət Statistika Komitəsinin illik rəsmi göstəriciləri əsasında sistemləşdirilmiş, daha sonra analizin statistik gücünü artırmaq məqsədilə metodoloji qaydada aylıq səviyyəyə uyğunlaşdırılmışdır.

"Gecelme_sayi" dəyişəni üzrə qurulan xətti reqressiya modelinin nəticələri modelin ümumilikdə statistik baxımdan əhəmiyyətli olduğunu göstərir. Model Summary cədvəlinə əsasən R=0,623 olmuşdur ki, bu da invest_mln ilə gecələmələrin sayı arasında müsbət və orta güclü əlaqənin mövcudluğunu ifadə edir. R Square=0,388 nəticəsi gecələmələrin dəyişməsinin 38,8%-nin investisiya göstəricisi ilə izah olunduğunu göstərir. Adjusted R Square=0,370 olması modeldə istifadə edilən müşahidə sayını nəzərə aldıqda da izah gücünün məqbul səviyyədə qaldığını təsdiqləyir. ANOVA cədvəlində F=21,576 və Sig.=0,000 nəticəsi modelin bütövlükdə statistik cəhətdən etibarlı olduğunu göstərir və investisiyanın təsirinin təsadüfi xarakter daşımadığını təsdiqləyir.

Əmsalların təhlili invest_mln dəyişəninin gecelme_sayi üzərində müsbət və statistik əhəmiyyətli təsir göstərdiyini nümayiş etdirir (B=9,269; Beta=0,623; p=0,000). Bu nəticə göstərir ki, dövlət investisiyalarının artımı regionda turizm hərəkətliliyinin genişlənməsi ilə müşayiət olunur. Qeyri-standartlaşdırılmış əmsalın interpretasiyasına əsasən investisiyanın 1 milyon manat artması aylıq gecələmələrin sayını orta hesabla təxminən 9 vahid artırır. Bu əlaqə infrastrukturun, yol və nəqliyyat şəbəkəsinin, kommunal təminatın və ümumi xidmət mühitinin yaxşılaşmasının turizm axınlarını stimullaşdırması ilə iqtisadi baxımdan əsaslandırıla bilər.

Modelin qiymətləndirmə tənliyi aşağıdakı kimidir:

**geceleme_sayi = a + 9,269 · invest_mln + ε**

Burada a sabit termin, ε isə təsadüfi qalıqları ifadə edir.

Eyni metodologiya ilə qurulan ikinci modeldə asılı dəyişən kimi iase_sayi götürülmüşdür. Lakin bu model üzrə əldə olunan nəticələr investisiyanın iaşə subyektlərinin sayına təsirinin statistik baxımdan əhəmiyyətli olmadığını göstərmişdir (R=0,216; R Square=0,046; F=1,658; p=0,207). Əmsal müsbət istiqamətli olsa da, 5% əhəmiyyətlilik səviyyəsində təsdiq olunmamışdır. Bu nəticə göstərir ki, investisiya artımı qısa müddətdə turizm göstəricisinə daha operativ reaksiya versə də, iaşə fəaliyyəti göstərən subyektlərin sayında artım daha çox məskunlaşma dinamikası, əhalinin gəlir səviyyəsi və bazar tələbinin formalaşması kimi amillərlə şərtlənir.

Beləliklə, qurulan modellər investisiyanın xidmət sektoruna təsir mexanizminin struktur xüsusiyyətlərini üzə çıxarır. Turizm göstəricisi investisiya artımına daha həssas dəyişən kimi çıxış edir, iaşə subyektlərinin sayı isə daha gecikməli və dolayısı kanallar vasitəsilə formalaşır. Bu nəticə xidmət sahələrinin inkişafının mərhələli xarakter daşıdığını göstərir: ilkin mərhələdə infrastruktur və turizm axınları genişlənir, növbəti mərhələdə isə özəl sektorun şaxələnməsi və xidmət subyektlərinin say artımı baş verir.

Dissertasiya işinin **“Azərbaycanın işğaldan azad olunmuş ərazilərində xidmət sahələrinin inkişafının başlıca istiqamətləri”** adlı üçüncü fəslində IV Sənaye İnqilabı” modelini tətbiq edən ölkələrin xidmət sahələrindəki təcrübəsinin regionda tədbiqinin mümkün faydaları, xidmət sahələrinin inkişafı üzrə mütərəqqi təşviq

mexanizmlərinin tədbiqi imkanları, işğaldan azad olunmuş ərazilərdə xidmətlərin yeni növ və formalarından istifadənin başlıca istiqamətləri verilmişdir.

Apardığımız tədqiqatlara əsasən, dövlət investisiyalarının turizm axınına müsbət təsiri nəzərə alınaraq xidmət strategiyasının infrastruktur layihələri ilə uzlaşdırılması, minimum xidmət paketinin mərhələli tətbiqi və turizm portfelinin şaxələndirilməsi əsas istiqamət kimi müəyyən edilmişdir. Eyni zamanda, iaşə və digər xidmət subyektlərinin artımını sürətləndirmək üçün institusional təşviq mexanizmlərinin, rəqəmsal qeydiyyat və icazə prosedurlarının sadələşdirilməsi, kadr hazırlığı və sahibkarlıq mühitinin gücləndirilməsi zəruri hesab olunur.

Ümumilikdə, innovasiyaların iqtisadi fəaliyyətin müxtəlif aspektlərinə inteqrasiyası müasir dövrün xidmət yönümlü iqtisadiyyatlarında inkişafı sürətləndirmək, rəqabətqabiliyyətliliyi və davamlı artımı təşviq etməkdə mühüm rola malikdir. Bütövlükdə, bu strategiyaların həyata keçirilməsi xidmət sektoru üçün davamlı inkişaf mexanizminin yaradılmasına, sektorda artımın və səmərəliliyin təmin edilməsi üçün sosial-iqtisadi yeniliklərdən istifadə etməyə kömək edə bilər. Xidmət sektorunun innovativ inkişafı üçün vəsaitlərin cəlb edilməsi üçün həllərin hazırlanması iqtisadi reallığa uyğunlaşmalı və əhalinin rifahını yaxşılaşdırmalıdır. Dövlət-özəl tərəfdaşlığı bu məqsədə çatmaq üçün mümkün variantlardan biridir. İqtisadi inkişafda sinergik effekt əldə etmək və əhalinin həyat keyfiyyətini yaxşılaşdırmaq üçün xidmət innovasiyasının müxtəlif sahələrinin inteqrasiyası vacibdir.

Müvəffəqiyyətin açarı innovativ inkişaf üçün təşkilati və idarəetmə şəraiti və infrastruktur yaradan xidmət innovasiya fəaliyyətləri sisteminin inkişaf etdirilməsindən keçir. Xidmət sektorunun sosial əhəmiyyətini və mürəkkəbliyini nəzərə alaraq belə bir sistem innovativ inkişafın dövlət tərəfindən tənzimlənməsini tələb edir. Bu tənzimləmə təkcə məqsədlər qoymamalı, həm də əhalini və

ixtisaslı kadrları innovasiyaları inkişaf etdirməyə, tətbiq etməyə və istifadə etməyə stimullaşdırmalı və həvəsləndirməlidir[5].

Bazara yeni məhsullar təqdim etmək və hərtərəfli innovasiya artımını inkişaf etdirmək üçün hökumət tərəfindən innovasiya səylərinin təşviqi və asanlaşdırılması zəruridir. Bu cür təşviqlərin məqsədi innovativ səylərdə və infrastrukturda iştirak edən təşkilatların böyüməsini asanlaşdırmaq, eyni zamanda xidmət bazarının yaradılması və fəaliyyəti üçün əlverişli şərait yaratmaqdır. Xidmət iqtisadiyyatı dövlətlər tərəfindən fiskal, monetar, vergi və gömrük tədbirlərini əhatə edən mexanizmlər vasitəsilə dəstəklənir.

İnkişaf etmiş ölkələrdə həvəsləndirici alətlər maliyyə stimulları, vergilərdən azadolmalar və müqavilə əsasında elmi tədqiqatlara dəstəkdən ibarətdir. Xüsusən də kiçik və orta müəssisələrin və elmi nəticələr yaradan tədqiqatçıların fəaliyytlərinə xüsusi diqqət yetirilir. Müxtəlif dövlətlərin hökumətləri innovasiyaları təşviq etmək üçün fərqli strategiyalardan istifadə etsə də, birbaşa maliyyələşdirmə Böyük Britaniya, Almaniya, Danimarka, Hindistan, Çin, Norveç, Amerika Birləşmiş Ştatları, Fransa və İsveç də daxil olmaqla bir çox ölkədə geniş yayılmış yanaşmadır. Subsidiyalar, kreditlər və avanslar xidmət bazarının inkişafı ilə bağlı xərclərin əlli faizinə qədərini qarşılaya bilən birbaşa maliyyələşdirmənin bütün formalarını əhatə edir. Bu cür maliyyələşdirmə güzəştli şərtlərlə, faizsiz və ya heç bir ödəniş etmədən uzadıla bilər.

Azərbaycanın işğaldan azad edilmiş regionlarının böyük turizm potensialı olduğu məlumdur. Turizm sahəsində dövlət-özəl tərəfdaşlığı bu sahəsnin intensiv inkişafına səbəb ola bilər.

Azad olunmuş ərazilərdə formalaşdırılacaq istənilən xidmət sahəsi innovativ tələblərə cavab verməlidir. Bu həm xarici investorların regionda marağını artıracaq, həm də qurulan bu şirkətlərin daha uğurlu və gəlirli olmasına gətirib çıxaracaqdır.

Azərbaycanda bu sahədə atılan ən uğurlu addımlardan biri əminliklə deyə bilərik ki, “ASAN xidmət” modelidir.

---

[5] Каточков В.М. “Инновационные направления развития сферы услуг как фактор экономического роста.” Вопросы инновационной экономики. 2014, 4(1), стр.14-20.

**1. Hüquqi və infrastruktur dəstəyi:**

- Hökumət dəstəkləyici hüquqi çərçivələr və infrastruktur yaratmaqla xidmət sektorunda innovativ təcrübələr üçün əlverişli mühit yarada bilər. Bura bizneslərin innovasiyalar yaratması və həm biznesə, həm də cəmiyyətə fayda gətirən sosial əhəmiyyətli layihə və proqramların həyata keçirilməsi üçün stimulların təmin edilməsi daxildir.

**2. Fəaliyyətlərin şaxələndirilməsi:**

- Xidmət sektoru müəssisələri fəaliyyətlərini diversifikasiya etməklə öz kommersiya imkanlarını və iqtisadi göstəricilərini artıra bilərlər. Bu, onların xidmətlərinin çeşidini genişləndirməyi, yeni bazarlara daxil olmağı və ya innovativ xidmət göstərmə modellərini inkişaf etdirməyi əhatə edə bilər.

**3. Digər iqtisadi qurumlarla inteqrasiya:**

- Xidmət sektoru daxilində (üfüqi inteqrasiya) və iqtisadiyyatın digər sektorları ilə əməkdaşlıq və inteqrasiya (şaquli inteqrasiya) təkmilləşdirilmiş effektivliyə səbəb ola bilər. Məsələn, xidmət təminatçıları və texnologiya şirkətləri arasında əməkdaşlıq hər iki tərəfin xeyrinə olan innovativ həllərin inkişafına səbəb ola bilər.

**4. İnnovasiya klasterlərinin formalaşması:**

- İnnovasiya klasterlərinin yaradılması xidmət sektoru müəssisələri arasında əməkdaşlığa və bilik mübadiləsinə təkan verə bilər. Bu klasterlər innovativ həllərin işlənib hazırlanması və həyata keçirilməsi üçün birgə işləyən biznes, tədqiqat institutları və dövlət qurumları şəbəkəsindən ibarət ola bilər.

**Sxem 1. İnnovativ inkişaf yolu ilə xidmət sektorunun sosial-iqtisadi səmərəliliyini artırmaq üçün əsas strategiyalar. Mənbə**[6] məumatları əsasında müəllif tərəfindən hazırlanıb

Bu mərkəzlər dövlət xidmətləri sektorunda innovasiya nümunəsi kimi işğaldan azad olunmuş ərazilərdə də yaradılmalıdır. Bütövlükdə, dövlət dəstəyi xidmət sektorunun inkişafında mühüm rol oynayır.

---

[6] Каточков В.М. "Инновационные направления развития сферы услуг как фактор экономического роста." Вопросы инновационной экономики. 2014, 4(1), стр.14-20.

## Nəticələr

Aparılmış tədqiqat göstərir ki, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində xidmət sektorunun inkişafı regionun iqtisadi dirçəlişinin əsas istiqamətlərindən biridir. İnfrastrukturun bərpası, investisiya mühitinin yaxşılaşdırılması, rəqəmsal texnologiyaların tətbiqi və insan kapitalının inkişafı bu ərazilərdə xidmət sahələrinin sürətli və davamlı inkişafını təmin edə bilər.

Dissertasiya işində işğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin inkişafı ərazi iqtisadi modelinin əsas mərkəzi elementlərindən biri kimi araşdırılmışdır. Müəyyən edilmişdir ki, iqtisadi dövriyyə yalnız kapital qoyuluşu ilə formalaşmır; o, xidmət şəbəkəsinin funksional vəziyyəti ilə də sıx bağlıdır. Əraziyə investisiya daxil ola bilər, lakin xidmət infrastrukturu işləmirsə, həmin investisiya bazar mexanizminə çevrilmir. Nəzəri çərçivə göstərmişdir ki, post-konflikt iqtisadi transformasiya yalnız resurs yönümlü model üzərində qurulmur. Əsas məsələ idarəetmə qabiliyyəti, institusional sabitlik və iqtisadi subyektlərin qarşılıqlı əlaqə mexanizminin qurulmasıdır.

Aparılmış nəzəri və empirik təhlillər əsasında aşağıdakı nəticələr formalaşdırılmışdır:

1. İşğaldan azad olunmuş ərazilərdə xidmət sahələrinin inkişafı bərpa prosesindən sonra başlanılan mərhələ deyil, yenidənqurma ilə paralel qurulmalı olan iqtisadi sistem elementi kimi müəyyən edilmişdir. Xidmət şəbəkəsi formalaşmadıqda məskunlaşma tempinin zəiflədiyi, sahibkarlıq təşəbbüslərinin gecikdiyi və kapitalın daxilolma riskinin artdığı müəyyən olunmuşdur.
2. Post-konflikt mərhələdə dövlət ilkin təşkilatlandırıcı və maliyyələşdirici funksiyanı yerinə yetirir, lakin uzunmüddətli iqtisadi sabitlik özəl sektorun institusional mühitdə sərbəst və proqnozlaşdırıla bilən fəaliyyətindən asılıdır. Xidmətlərin təsir gücü obyektlərin sayından çox idarəetmə mexanizminin effektivliyi ilə bağlıdır.
3. Sahibkar sorğusu iqtisadi dirçəlişin yalnız bir sahə əsasında mümkün olmadığını göstərmişdir. Respondentlərin 76,6 faizi sənaye və xidmət sahələrinin paralel inkişafını üstün saymışdır. Turizmin

74,5 faizlə prioritet kimi seçilməsi onun regionda digər xidmət istiqamətlərini hərəkətə gətirən aparıcı sektor olduğunu təsdiqləmişdir.

4. İş yerlərinin yaradılması ilə bağlı 51,1 faiz respondent dövlət və özəl sektorun birgə fəaliyyətini daha məqsədəuyğun hesab etmişdir. Bu nəticə risk bölgüsünün və sabit institusional mühitin bazar davranışına təsirini göstərir.

5.Vətəndaş sorğusu məskunlaşma qərarının sosial xidmətlərin əlçatanlığı ilə sıx bağlı olduğunu göstərmişdir. Respondentlərin 36,9 faizi köçün ləngiməsini mövcud yaşayış mühitinə uyğunlaşma ilə əlaqələndirmişdir ki, bu da gündəlik xidmət infrastrukturunun iqtisadi aktivlik üçün əsas şərt olduğunu ortaya qoyur.

6. Strateji infrastruktur layihələri ilə yenidənqurma prosesinin qəbul edilən effektivliyi arasında müsbət əlaqə müəyyən edilmişdir. Ağıllı şəhər layihələrinin genişlənməsi bərpa prosesinin effektivlik göstəricisinin yüksəlməsi ilə müşayiət olunmuşdur. Alternativ enerji təşəbbüslərinin artması yenidənqurma qiymətləndirilməsində müsbət dəyişmə yaratmış, hava limanlarının istifadəyə verilməsi isə nəqliyyat bağlantısını genişləndirərək iqtisadi aktivliyi stimullaşdırmışdır.

7. Dövlət investisiyası ilə gecələmələrin sayı arasında aparılmış analiz göstərmişdir ki, investisiyanın həcmi artdıqca gecələmələrin sayı da yüksəlir. Hesablamalara görə dövlət investisiyası 1 milyon manat artdıqda, gecələmələrin sayı orta hesabla 9,269 vahid artır. Gecələmələrdəki dəyişmənin 38,8 faizi investisiya həcmi ilə izah olunmuşdur. Bu nəticə dövlət kapital qoyuluşunun yerləşdirmə və turizm aktivliyinə birbaşa və ölçülə bilən təsir göstərdiyini nümayiş etdirir.

8. Dövlət investisiyası ilə iaşə subyektlərinin sayı arasında statistik cəhətdən təsdiqlənmiş birbaşa artım əlaqəsi müəyyən edilməmişdir. Bu fakt iaşə sektorunun genişlənməsinin təkcə dövlət investisiyası ilə deyil, əhali axını, alıcılıq qabiliyyəti və sahibkarlıq təşəbbüsü ilə bağlı olduğunu göstərir.

9. İzahlı dəyişənlər arasında qarşılıqlı xətti asılılıq riskinin mövcudluğu müəyyən edilmişdir ki, bu da iqtisadi qərarların bir

göstərici əsasında deyil, paralel amillərin birgə qiymətləndirilməsi ilə formalaşdırılmasını tələb edir.

10. IV Sənaye İnqilabı kontekstində xidmət sektorunun inkişaf istiqaməti rəqəmsal idarəetmə, məlumat əsaslı nəzarət mexanizmləri və standartlaşdırılmış xidmət keyfiyyəti üzərində qurulmalıdır. Rəqabət üstünlüyü obyektlərin sayına deyil, xidmətin təqdim olunma keyfiyyətinə və davamlılığına bağlıdır.

Tədqiqatın nəticələri göstərir ki, xidmət sektorunun inkişafı yalnız iqtisadi artım məsələsi deyil, həm də daimi məskunlaşma üçün mühüm amildir.

## Təkliflər

Tədqiqatın nəticələrinə əsaslanaraq aşağıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Xidmət sahələrinin inkişafı üzrə ayrıca strateji proqram sənədi hazırlanmalı və icra mexanizmi konkret ölçülə bilən göstəricilərə əsaslanmalıdır. Hər yaşayış məntəqəsi üçün minimal xidmət paketi standartı müəyyən edilməli və bu paket mərhələli şəkildə tətbiq olunmalıdır.
- Dövlət investisiyalarının xidmət sektoruna keçid effektini sürətləndirmək üçün dövlətin koordinasiya, tənzimləmə və təşviq mexanizmləri gücləndirilməlidir.
- Alternativ enerji və nəqliyyat layihələrində özəl sektorun iştirak imkanları artırılmalıdır. Regional xidmət klasterlərinin formalaşdırılması təşviq edilməlidir.
- Azad olunmuş ərazilərdə ekoturizm, kənd turizmi və sağlamlıq turizmi layihələri inkişaf etdirilməlidir. Turizm marşrutları yaradılmalı və beynəlxalq turizm bazarına çıxış təmin edilməlidir. Habelə hotel, restoran və rekreasiya xidmətlərinə investisiya təşviq olunmalıdır. Turizm aktivliyinin artımını dəstəkləyən əlavə xidmət sahələri mərhələli şəkildə genişləndirilməlidir.
- Xidmət sektoruna xarici və daxili investisiyaların cəlb edilməsi üçün investorlar üçün hüquqi və institusional təminatlar gücləndirilməli, investisiya təşviqi proqramları genişləndirilməlidir.

- Azad olunmuş ərazilərin əlverişli coğrafi mövqeyi regional logistika mərkəzlərinin yaradılmasına imkan verir. Bunun üçün logistika parkları və ticarət mərkəzləri yaradılmalı, regionlararası ticarət əlaqələri genişləndirilməli və tranzit xidmətlər inkişaf etdirilməlidir.
- Xidmət sektorunun inkişafı üçün ixtisaslı kadrların hazırlanması vacibdir. Bunun üçün turizm, logistika və xidmət sahələri üzrə peşə təhsil mərkəzləri yaradılmalı, yerli əhalinin məşğulluğunu artırmaq üçün təlim proqramları təşkil edilməli, universitet–biznes əməkdaşlığı gücləndirilməlidir.
- Azad olunmuş ərazilərin yenidən qurulması prosesində rəqəmsal iqtisadiyyatın elementlərinin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Xüsusən də elektron xidmət platformalarının yaradılması, genişzolaqlı internet və rəqəmsal xidmətlərin inkişafı, ağıllı şəhər və ağıllı kənd layihələrinin genişləndirilməsi, rəqəmsal logistika və elektron ticarət xidmətlərinin inkişafı təmin edilməlidir.
- Xidmət sektorunda biznesin inkişafı üçün əlverişli maliyyə resurslarına çıxış imkanlarının artırılması, vergi güzəştləri və subsidiya proqramlarının, startap və kiçik bizneslər üçün güzəştli kreditlərin, dövlət–özəl tərəfdaşlığı mexanizmlərinin genişləndirilməsi vacibdir.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc edilmiş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1. C.M.Abdullayev. Post-konflikt ərazilərdə xidmət sferalarının bərpası və yenidən qurulması üzrə beynəlxalq təcrübə // "Qədim diyar" Beynəlxalq Elmi Jurnalı. Bakı, 2023 // Cild 5, Say 12. s. 53-58.
2. C.M.Abdullayev. İşğaldan azad edilmiş ərazilərdə turizm və kənd təsərrüfatinin inkişafi perspektivləri // "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" Beynəlxalq Elmi Konfransı. Bakı, 2023. VI hissə. s. 61-63.

3. C.M.Abdullayev. İşğaldan azad edilmiş ərazilərdə IV sənaye inqilabı // Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə“İqtisadiyyatın idarə edilməsinin müasir problemləri və perspektivləri” mövzusunda respublika elmi konfransı. Bakı, 2023. s. 74-77.

4. C.M.Abdullayev. İşğaldan azad edilmiş ərazilərin yaşıl enerji potensialı // “Dövlətlərarası iqtisadi əlaqələr: müasir çağırışlar və perspektivlər” beynəlxalq elmi konfransı. Bakı, 2023. № 5 // s. 293-294.

5. C.M.Abdullayev. Organization and reconstruction of the transport service in the territories freed from occupation // “Davamlı inkişaf strategiyasi: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” II beynəlxalq elmi konfransı. Bakı, 2023. s. 86-88.

6. C.M.Abdullayev, M.H.Zeynalov. Directions of economic restructuring in the liberated regions of Azerbaijan // Всероссийская научно-практическая конференция студентов, аспирантов и молодых учёных «Актуальные аспекты модернизации российской экономики» konfrans. 2023. s. 412-418

7. C.M.Abdullayev. Formation of a favorable business environment in the service sector in the liberated territories // “İqtisadi artım və ictimai rifah” Elmi Jurnalı. Bakı, 2024. № 1 // s.70-80.

8. C.M.Abdullayev. IV sənaye inqilabı” modelini tətbiq edən ölkələrin xidmət sahələrindəki təcrübəsinin müqayisəli təhlili // “İnnovasiyalı iqtisadiyyat və menecment” Elmi Jurnalı. Bakı, 2024. № 1 // s. 101-108.

9. C.M.Abdullayev. Xidmət sektorunun inkişafı üçün innovativ təşviq mexanizmlərinin tətbiq perspektivləri // “Elmi Tədqiqat” Beynəlxalq Elmi Jurnalı. Bakı, 2024 // Cild 4, Say 11. s. 40-44.

10. C.M.Abdullayev. İşğaldan azad edilmiş ərazilərdə “ASAN xidmət”-in inkişafı perspektivləri // “Qədim diyar” Beynəlxalq Elmi Jurnalı. Bakı, 2024 // Cild 6, Say 11. s. 58-62.

11. C.M.Abdullayev, İ.İ.Qəhrəmanov, A.D.Abdullayev. Eco-Smart Tourism: Bridging The Gap Between High-Tech Solutions

and Sustainable Hotel Management Practices // International Conference on Smart Environment and Green Technologies – ICSEGT2024. 2024. Volume 1. // s. 253-259.

12. C.M.Abdullayev. Azərbaycanda işğaldan azad edilmiş ərazilərdə xidmət sektorunun dirçəldilməsində innovasiyaların tətbiqində beynəlxalq təcrübədən istifadə // Beynəlxalq nəqliyyat-logistika dəhlizləri: zəngilandan inkişaf impulslari. III Beynəlxalq elmi-praktik konfransı. Bakı, 2024. s. 332-335.

13. C.M.Abdullayev. Azərbaycanda dördüncü sənaye inqilabı: Texnoloji inkişafın təmin olunması // “Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu” Elmi-Praktiki konfrans. Bakı, 2024.

14. C.M.Abdullayev. Xidmət iqtisadiyyatının yenidən formalaşması: Qarabağ modeli // Tikintinin iqtisadiyyatı və menecment Jurnalı. Bakı, 2025 // Cild 4, Say 33. s. 240-246.



Dissertasiyanın müdafiəsi 01 may 2026-cı il tarixində saat $11^{00}$-da AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə AR ETN İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR ETN İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (www.economics.com.az)

Avtoreferat "19 mart" 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.03.2026.
Kağızın formatı: A5
Həcm 36060 işarə
Tiraj: 100